# **Həftəlik** *Bülleten*



**135**

**3 Aprel 2026**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**Hacıqabulda yeni qum zavodu inşa olunacaq – 15 milyon manatlıq investisiya**

Hacıqabul Sənaye Parkının yeni rezidenti tərəfindən zənginləşdirilmiş kvars qumunun və texniki tikinti qumunun istehsalı layihəsi həyata keçiriləcək.

“AzerKvars” MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Hacıqabul Sənaye Parkının rezidenti statusu verilib.

İnvestisiya dəyəri 15 milyon manat olan layihə çərçivəsində inşa ediləcək zavodda Hacıqabul rayonunda yerləşən Hacıvəlli yatağından hasil olunan xammal əsasında zənginləşdirilmiş kvars qumunun və texniki tikinti qumunun istehsalı planlaşdırılır. Layihə çərçivəsində 50 yeni iş yaradılması nəzərdə tutulur.

Hacıqabul Sənaye Parkında hazırda 14 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sənaye Parkında görülmüş işlərə sahibkarlar tərəfindən 66,8 milyon manatdan çox investisiya yatırılıb, 570-ə yaxın daimi iş yeri yaradılıb.



**Dağ-mədən və metallurgiya sənayesinin inkişafının təmin edilməsi ilə bağlı tədbirlər həyata keçiriləcək – SƏRƏNCAM**

Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin dərinləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. "Ötən illərdə həyata keçirilən islahatlar nəticəsində alüminium, qızıl, gümüş və misin sənaye istehsalının əsasları formalaşdırılmış, metal filizi ehtiyatlarının bir hissəsi sənayedə istifadəyə yönəldilmişdir. “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə nəcib və əlvan metal yataqları üzrə sənaye hasilatı təşkil edilmiş, müasir emal infrastrukturu qurulmuşdur. Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirmişdir. Eyni zamanda, mövcud mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət−özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlər görülməsi zəruridir. Azərbaycan Respublikasının zəngin mineral ehtiyatları, rəqabətqabiliyyətli enerji təminatı, sənaye təşviqi mexanizmləri və Orta Dəhliz üzərində yerləşməsi əlaqəli sənaye sahələrinin də dayanıqlı inkişafı üçün əlverişli şərait yaradır", - Sərəncamda qeyd olunub.



**Azərbaycanda Qərb Sənaye Parkı yaradılacaq.**

Azərbaycanda dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirilməsi üçün Qərb Sənaye Parkının yaradılacaq. Bu barədə Prezident İlham Əliyevin bu gün imzaladığı Azərbaycanda dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncamında bildirilib. Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirib. Bununla yanaşı, Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan yaradır. Qeyd olunur ki, mövcud mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət−özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir. "Qlobal iqtisadiyyatda gedən enerji keçidi və yüksək texnologiyaların inkişafı fonunda metallara tələbatın yüksəlməsi bu sahənin strateji əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikasının zəngin mineral ehtiyatları, rəqabətqabiliyyətli enerji təminatı, sənaye təşviqi mexanizmləri və Orta Dəhliz üzərində yerləşməsi əlaqəli sənaye sahələrinin də dayanıqlı inkişafı üçün əlverişli şərait yaradır", – sərəncamda bildirilir.



**Azərbaycanda yeni zavod inşa ediləcək.**

Azərbaycanda kalsinasiya və anodbişirmə zavodu tikiləcək. Bu barədə Prezident İlham Əliyevin bu gün imzaladığı Azərbaycanda dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncamında bildirilib. Sərəncama əsasən, zavodun tikintisini Azərbaycan İnvestisiya Holdinqi hazırlanan texniki-iqtisadi əsaslandırmaya uyğun olaraq, maliyyələşdirmə mənbələrinin müəyyən olunmasını və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə həyata keçirəcək. Bundan başqa, metallurgiya məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə enerji və nəqliyyat tariflərinin təkmilləşdirilməsi, zərurət olduğu təqdirdə əlavə torpaq sahəsinin ayrılması və elektrik enerjisinə tələbatın ödənilməsi ilə bağlı tədbirlər görüləcək.

Bilidirilir ki, ölkədə yaradılacaq Qərb Sənaye Parkı Azərbaycanda dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan verir. Sərəncama əsasən, Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirib. Bununla yanaşı, Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan yaradır.



**Bələdiyyədən icarəyə götürülən torpaqlar - ÖZƏLLƏŞDİRİLƏ BİLƏR.**

Mütəxəssislər bildirir ki, icarə müddətindən asılı olmayaraq, bu torpaqların özəlləşdirilməsi mümkündür. Bunun üçün ilk növbədə ərazinin arxiv məlumatları və ilkin sənədləri araşdırılmalıdır.

Özəlləşdirmə prosesinə başlamaq üçün ərazinin dəqiq koordinat ölçüləri müəyyənləşdirilməli və müvafiq qurumlara rəsmi müraciət olunmalıdır. Əsas məqamlardan biri isə torpağın bazar qiymətinə uyğun ödənişin edilməsidir.

Torpaq sahəsi mülkiyyətə keçdikdən sonra vətəndaş həmin ərazi üzərində tam sərəncam vermək - satmaq, bağışlamaq və ya girov qoymaq hüququ qazanır.



**Sərginin adı: ATYRAU BUILD 2026**

**Tarixlər: 08 - 10 aprel 2026-cı il,**

**Məkan: Atırau Sərgi Mərkəzi, Atırau (Qazaxıstan)**

Şimali Xəzər Tikinti Sərgisi. Tikinti materialları və avadanlıqları, bitirmə materialları və interyer, pəncərə, qapı və fasadlar, istilik və ventilyasiya, su təchizatı və sanitariya texnikası, keramika və daş, yol tikintisi...

**Sərginin adı: MINING TURKEY 2026**

**Tarixlər: 08 - 11 aprel 2026-cı il,**

**Məkan: Tüyap Sərgisi Konqres və Konqres Mərkəzi, İstanbul (Türkiyə)**

Mədənçilik, Mədən Maşınları, Avadanlıqları və Tikinti Nəqliyyat Vasitələri Sərgisi. Mining Turkey sərgisində filizlər, kömür, təbii daşlar, aqreqatlar, qum, sement, əhəng, gips texnologiyaları, qiymətli və yarımqiymətli daşlar və metallar sərgisi

**Sərginin adı: ESTBUILD 2026**

**Tarixlər: 09 - 11 aprel 2026-cı il,**

**Məkan: Estoniya Sərgi Mərkəzi, Tallinn (Estoniya)**

Beynəlxalq Estbuild tikinti sərgisi innovativ texnologiyaların, tikinti konstruksiyalarının, materiallarının təqdimatına yönəlib.

**Sərginin adı: WOODEN HOUSES 2026**

**Tarixlər: 09 - 12 aprel 2026 - cı il,**

**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**

Taxta Evlərin Beynəlxalq ixtisaslaşmış sərgisi. Taxta ev tikintisi sahəsində ən uğurlu sərgilərdən biri olan və aparıcı Rusiya və dünya istehsalçılarını, təchizatçılarını, inşaatçılarını, memarlarını və dizaynerlərini bir araya gətirən sərgi

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN TƏSƏRRÜFAT HESABLI ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT İDARƏSİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti Və Təchizat İdarəsi açıq tender elan edir.
Tenderin predmeti Abşeron rayonu, Saray qəsəbəsində 1 nömrəli tam orta məktəbin əsaslı təmiri və 960 şagird yerlik əlavə korpusun tikintisində əlavə işlərin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Salahova Nuranə-Gülgün, Baş mütəxəssis
Email: Nurana.Gsalahova@etti.edu.az
Əlaqə telefonu: +994 12 645 73 48



**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SƏRHƏD XİDMƏTİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti açıq tender elan edir.
Tenderin predmeti Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının 5 mərtəbəli kazarma binasının sağ və orta korpuslarının əsaslı təmiri işlərinin satınalınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Toğrul Qarayev, Satınalma mütəxəssisi
Email: dsx.tender@dsx.gov.az
Əlaqə telefonu: +994 12 498 01 36



**"AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN NƏZDİNDƏ AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ KOLLECİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER KEÇİRİR.**

"Azərbaycan Dövlət Pedaqoji Universitetinin Nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Tenderin predmeti ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində cari təmir işləridir. (Yasamal tədris korpusu)

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Şamxal Hacızadə, Baş mühasib
Email: Hacizadeh.shamxal@adpk.edu.az
Əlaqə telefonu: +994 55 288 34 88



**AZƏRBAYCAN RESPUBLİKASI HƏRBİ PROKURORLUĞU TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Hərbi Prokurorluğu açıq tender elan edir. Tenderin predmeti Hərbi Prokurorluğun inzibati binasında, həyətyanı sahəsində təmir, xətt çəkilişi və abadlaşdırma işləri və təmirdən sonra avadanlıqların alınması və quraşdırılması işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Malik Əliyev, Baş mühasib
Email: malikeliyev@mail.ru
Əlaqə telefonu: +994 12 449 45 66



**QƏBƏLƏ RAYON MƏNZİL İSTİSMAR VƏ KOMMUNAL MÜƏSSİSƏLƏRİ KOMBİNATI TENDER ELAN EDİLDİ.**

Qəbələ Rayon Mənzil İstismar Və Kommunal Müəssisələri Kombinatı açıq tender elan edir.
Tenderin predmeti Qəbələ şəhərində Mənzil fondunun (binaların) əsaslı təmir işlərinin görülməsi üçün layihə smeta sənədlərinin hazırlanmasının satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Qədirov Xeyrulla, baş mühasib
Email: xeyrulla.maliyye@mail.ru
Əlaqə telefonu: +994 50 596 67 84



**"SU İDMANI SARAYI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİLDİ.**

"Su İdmanı Sarayı" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Tenderin predmeti inşaat materiallarının, alətlərin və santexnik mallarının satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elman Zeynalov, Təchizat və təsərrüfat şöbəsinin müdiri
Email: elman.zeynalov@suidmanisarayi.az
Əlaqə telefonu: +994 50 670 91 91





**www.atmia.az**